Bu faciəni unutmağa haqqımız yoxdur

Müharibə bəşəriyyətin xroniki ağır xəstəliyi, soyqırımı isə heç zaman sağalmayan yarasıdır. Bu cür işğalçı qəsbkarlıq kütləvi qırğın, ölüm-itim, fəlakət, dağıntı və dəhşətli faciələri ilə yadda qalır. Ona görə də yaraları dərin və sağalmaz iz buraxır. Tarixdə elə ağrı-acılı, qanlı-qadalı səhifələr olub ki, onların dəhşətləri zaman keçdikcə üzə çıxır, yaralarından daim qan sızır, sağalmasına heç bir ümid qalmır. Elə Xocalı müsibəti kimi!

Azərbaycan xalqının XX əsrdə üzləşdiyi dəhşətli Xocalı faciəsi yalnız Holokost, Xatın, Lidisa, Oradur, Sonqmi soyqırımı kimi insanlıq tarixinə düşmüş qanlı olaylarla müqayisə oluna bilər. Xocalı faciəsi təsadüfi hadisə deyil. Xocalı faciəsini törətməklə ermənilər xalqımızı qorxutmaq, mübarizə əzmimizi qırmaq, tarixi torpaqlarımızın itirilməsi ilə bizi barışmağa məcbur etmək istəyirdilər. Lakin hiyləgər düşmən məqsədinə çata bilmədi. Xalqımız öz dövlətinin suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə daha da mətinləşdi, qəhrəmanlıq və dəyanət nümayiş etdirdi.

"Bu soyqırımı, eyni zamanda, bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir"– deyən ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü il fevralın 24-də Milli Məclis "Xocalı Soyqırımı Günü haqqında" qərar qəbul etdi. BMT-dən, dünya dövlətlərindən bu qətliamın gerçək mahiyyətini açıqlayaraq, beynəlxalq ictimaiyyəti erməni terrorizminə qarşı təsirli tədbirlər görülməsi tələb olundu. Qəbul edilmiş qərara əsasən, 1992-ci il fevralın 26-da erməni təcavüzkarları tərəfindən törədilmiş, Azərbaycan xalqının milli faciələrindən və bəşər tarixinin qanlı səhifələrindən biri olan Xocalı hadisələri hər il fevralın 26-da Xocalı Soyqırımı Günü kimi qeyd olunur. Ümummilli liderimizin "Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında" 1997-ci il fevralın 25-də imzaladığı sərəncamla hər il fevral ayının 26-sı saat 17.00-da ölkəmizdə Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunur.

Son illər Azərbaycanın haqlı mövqeyini bütün dünyaya daha gur səslə nümayiş etdirən dövlətimizin başçısı İlham Əliyev işğal altında olan torpaqlarımızın azad edilməsi istiqamətində səmərəli fəaliyyəti ilə yanaşı, həm də dünya ictimaiyyətinin diqqətini erməni vandalizminə cəlb etməyə nail olur. "Xocalı faciəsi erməni millətçilərinin yüzilliklər boyu türk və Azərbaycan xalqlarına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsi idi" – deyən Prezidentimizin gərgin əməyinin nəticəsidir ki, hazırda dünyanın bir sıra dövlətləri Xocalı qətliamını əsl soyqırımı kimi tanıyır və qəbul edir. Ötən illərdə dövlət başçısının göstərişi ilə Xocalı şəhidlərinin xatirəsini əbədiləşdirmək üçün bir sıra tədbirlər həyata keçirilib. Bakıda, respublikamızın bir sıra bölgələrində, həmçinin xaricdəki diasporlarımızın maddi və mənəvi dəstəyi ilə dünyanın əksər ölkələrinin paytaxtlarında Xocalı şəhidlərinin xatirəsinə abidələr ucaldılıb. Bu isə ürəkləri daim Vətən eşqi ilə döyünən soydaşlarımızın öz yurddaşları olan Xocalı şəhidlərinin müqəddəs ruhuna hörmət və ehtiramlarının bariz nümunəsidir.

2009-cu ilin fevralından isə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə keçirilən "Xocalıya ədalət!" kampaniyası isə ermənilərin cinayətkar əməllərinin ifşa olunmasında müstəsna rola malikdir.

Bu mənada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin azərbaycanlıların soyqırımının dünyada tanıdılmasına yönəlmiş tədbirlər həyata keçirməsi hər bir soydaşımız üçün nümunə olmalıdır.

Mən o dövrdə xarici ölkə mətbuatında Xocalı faciəsi ilə bağlı yazıları izləyirdim və onlardan birini diqqətə çatdırmaq istəyirəm. Faciə baş verən gün Xankəndidə ezamiyyətdə olmuş Fransanın "Libardion" qəzetinin əməkdaşı Jul Gen Vaynerin qeydləri xüsusi maraq doğurur. Xocalı soyqırımını "qorxulu yuxu"ya bənzədən Vayner jurnalistika ilə məşğul olduğu 25 il ərzində müharibələrin getdiyi müxtəlif ölkələrdə olduğunu, lakin Xocalıdakı kimi dəhşətli və tükürpədici mənzərələrlə rastlaşmadığını yazıb. O, "Libardion" qəzetində çap etdirdiyi "Erməni terrorizminin canlı şahidi oldum" sərlövhəli yazıda Xocalıda baş verənlərin qabaqcadan cızılan ssenari olduğunu açıq bəyan edib. Onun fikrincə, bunda məqsəd bütövlükdə bəşəriyyətin gözünü qorxutmaq olub, erməni terrorizmi dünyanı məhz bu yolla "ram etməyə" çalışıb.

Amerika yazıçısı Samuel Vimsin "Ermənistan: böyük hiylə – terrorçu xristian dövlətinin sirləri" adlı kitabında qeyd etdiyi kimi, əslində, bu soyqırımı ətrafında yaranan hay-küy ermənilərə Türkiyədən, Amerika və dünya xristianlarından böyük məbləğdə pul vəsaiti qoparmaq üçün lazımdır. Cənab Vims onu da diqqətə çatdırır ki, həqiqətdə ermənilərə qarşı heç bir kütləvi qətl hadisələri törədilməyib, sadəcə, erməni yalan maşını dünyanı çaşdırmağa, özlərinin "məzlum" bir görüntüsünü yaratmağa çalışır.

Xocalı qətliamı Azərbaycan memarlığında və heykəltaraşlığında öz dolğun əksini tapıb. Mövzu Azərbaycanın Xalq rəssamı, istedadlı heykəltaraş Natiq Əliyevin yaradıcılığında geniş yer tutur. O, Mexikoda (2012), Bosniya və Herseqovinanın paytaxtı Sarayevoda (2012) və Ankara şəhərində (2014) Xocalı faciəsi qurbanlarının xatirəsinə ucaldılmış monumental abidələrin müəllifidir. Bu heykəllər maraqlı kompozisiya həlli, plastik formaların mütənasib quruluşu, dramatik məzmunu ilə seçilir.

Xocalı faciəsinə həsr olunan ən böyük abidə Bakıdakı Xocalı prospektində – "Xətai" metro stansiyasının yaxınlığında ucaldılıb. Abidənin müəllifləri – heykəltaraş Teymur Rüstəmov, atası Aslan Rüstəmov və qardaşı Mahmud Rüstəmovdur. Abidənin açılış mərasimi 2008-ci ildə olub. Ondan öncə isə həmin yerdə 1993-cü ildə ucaldılmış başqa bir monument dayanırdı. Həmin abidə tələsik hazırlanmışdı. Buna görə də onu dəyişmək barədə qərar qəbul edildi. Yeni abidə ölçüsünə görə də əvvəlkindən fərqlənir. Əgər köhnə abidənin hündürlüyü 4 metr idisə, indi abidə postamenti ilə birlikdə 9 metrdir. Yeni layihənin müəllifləri abidənin əsas kompozisiyasını saxlayıb. Abidədə gənc qadın qucağında öldürülmüş uşaqla təsvir olunub.

Heykəltaraşlarımız Xocalı soyqırımına həsr olunmuş hər bir əsərdə erməni qaniçənlərinin simasında bütün işğalçılara, müharibələrə, terrora nifrətlərini bildiriblər. Eyni zamanda, xalqımızın düşmən qarşısında əyilməzliyini, məğrurluğunu real şəkildə tamaşaçılara çatdırmağa müvəffəq olublar.

Azərbaycan xalqı torpaqlarımızın bütövlüyü uğrunda canlarından keçən qəhrəmanların, Xocalıda qətlə yetirilmiş yüzlərlə həmvətənimizin xatirəsini daim əziz tutur, onları ehtiramla yad edir.

Ömər ELDAROV,
Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının rektoru,
akademik

Ermənistanın bəşəriyyətə qarşı törətdiyi ağır cinayət – Xocalı soyqırımı

***1992**-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərində işğalçı Ermənistanın mülki azərbaycanlı əhaliyə qarşı törətdiyi soyqırımından 30 il keçir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xocalıda törədilən soyqırımının 30-cu ildönümü haqqında yanvarın 28-də sərəncam imzalayıb. Sərəncamda Xocalıda törədilən soyqırımı Azərbaycan tarixinin ən dəhşətli hadisələrindən biri kimi qiymətləndirilir.*

Nə üçün Xocalı? Xocalı dünya arxeologiya elminə qədim yaşayış məskənlərindən biri, Xocalı–Gədəbəy mədəniyyətinin nümunəsi kimi daxil olub. Ağdam – Şuşa, Əsgəran – Xankəndi yolunun üstündə yerləşən Xocalı şəhəri əlverişli hərbi-strateji əhəmiyyət daşıyırdı. Xocalının işğal edilməsi yollara nəzarət etməyə və işğalı genişləndirməyə imkan verirdi. Şəhərdə Azərbaycanın Dağlıq Qarabağ regionunda yeganə hava limanı var idi.

1991-ci ilin oktyabrından Xocalı Ermənistan silahlı qüvvələri tərəfindən blokadaya alınmışdı. Şəhərə gedən bütün avtomobil yolları bağlanmışdı. Əlaqə yalnız helikopterlə saxlanılırdı. 1992-ci ilin yanvar ayından etibarən şəhər ilə helikopter əlaqəsi də kəsildi və ağır vəziyyət yarandı. Bu zaman Azərbaycanda dərin böhran hökm sürürdü, dövlət hakimiyyəti zəif idi. Təcavüzkar Ermənistan silahlı birləşmələri və Xankəndidə yerləşən 366-cı keçmiş sovet hərbi alayı 7 min nəfər əhalisi olan Xocalı şəhərində mühasirədə olan mülki azərbaycanlı əhaliyə 1992-ci il fevralın 25-dən 26-na keçən gecə hücum etdi. Şəhər əhalisinə qarşı soyqırımı həyata keçirildi. 613 nəfər öldürüldü, 1275 nəfər əsir götürüldü, 487 nəfər şikəst edildi. Öldürülənlərin 63 nəfəri azyaşlı uşaq, 70-i qoca idi. 8 ailə tamamilə məhv edildi. Bu, azərbaycanlılara qarşı əsl soyqırımı aktı idi. Xocalıda insanlar yalnız milli və dini mənsubiyyətinə – azərbaycanlı olduqlarına görə məhv edilmişdilər. Öldürülənlər xüsusi amansızlıqla qətlə yetirilmişdi.



Xocalı soyqırımını törətməklə Ermənistan azərbaycanlıları qorxutmaq, işğalçılıq siyasətini həyata keçirməkdən ötrü ən qəddar üsullara əl atmağa hazır olduğunu göstərmək istəyirdi. Bu vəhşiliyi Ermənistanın müdafiə naziri və sonralar prezidenti olan Serj Sarkisyan Böyük Britaniya jurnalisti Tomas de Vaala verdiyi müsahibəsində belə etiraf edirdi: "Xocalıya qədər azərbaycanlılar belə düşünürdülər ki, ermənilər mülki əhaliyə əl qaldırmağa qadir deyillər. Biz bunu (stereotipi) qırdıq". Erməni terrorçuları M.Melkonyan və S.Melkonyan isə yazırdılar ki, Xocalı sakinləri altı mil qət edərək, demək olar, təhlükəsiz yerə çatmışdılar, lakin əsgərlər onlara çatdılar. Sonra çəkmələrinə bərkidilmiş bıçaqları qablarından çıxarıb adamları doğramağa başladılar. Xocalının məhv edilməsi ilə hava limanı Azərbaycanın nəzarətindən çıxdı. İşğalçı Ermənistandan silah və silahlı dəstələrin gətirilməsi daha da intensivləşdi. Ermənistanı belə cəsarətləndirən Rusiya rəhbərliyində və ordusundakı müəyyən dairələrin hərbi, siyasi və mənəvi yardımları idi.

Xocalı soyqırımı Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə siyasətinin tərkib hissəsi, bəşəriyyətə və sivilizasiyaya qarşı törətdiyi ağır cinayətdir. Bu soyqırımı haqqında ABŞ, Türkiyə və digər ölkələrin mətbuat orqanlarında dərc edilən məqalələrdə azərbaycanlıların kütləvi surətdə məhv edilməsi təsvir olunmuş, fotoşəkillər verilmişdi. Azərbaycan hakimiyyətinin Xocalıda baş verənlərin miqyasını xalqdan gizlətmək cəhdləri ölkədə ictimai-siyasi vəziyyəti gərginləşdirdi. Vətəndaşların hiddətinin həddi-hüdudu yox idi. Onlar Ermənistanın hərbi təcavüzünü dayandırmaqdan ötrü qəti addımların atılmasını tələb edirdilər. Azərbaycan hakimiyyəti isə zəif və gücsüz idi.

Bakıda davam edən və getdikcə güclənən mitinq iştirakçıları hakimiyyətin istefasını tələb edirdilər. Artan təzyiqlər qarşısında Azərbaycan Respublikası Ali Sovetinin sədri Elmira Qafarova istefa verdi. Bu vəzifəyə Yaqub Məmmədov seçildi. Az sonra Prezident Ayaz Mütəllibov da istefaya getdi. 1992-ci ilin mayında Şuşa işğal edildikdən sonra A.Mütəllibovun hakimiyyətə qayıtmaq cəhdinin qarşısını alan Azərbaycan Xalq Cəbhəsi silahlı çevriliş etdi. Ölkə daha dərin xaos və anarxiya dövrünə qədəm qoydu.

Xocalıda törədilən soyqırımı haqqında həqiqətlərin dünyaya çatdırılmasında xalqın israrlı təkidi ilə ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı mühüm rol oynadı. Ümummilli liderin təşəbbüsü ilə məsələ Milli Məclisin iclaslarında müzakirə edildi və faciəyə hüquqi-siyasi qiymət verildi.

Prezident İlham Əliyevin "hücum diplomatiyası" kursunun həyata keçirilməsi, Mehriban xanım Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondunun fəaliyyəti və 2008-ci ildən başlanan "Xocalıya ədalət!" kampaniyası çərçivəsində görülən işlər nəticəsində dünyanın bir sıra ölkələrində bu hadisə soyqırımı kimi tanındı. İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrdə bu barədə dərs kitablarına məlumatlar daxil edildi, filmlər çəkildi. Dünyanın müxtəlif dillərində kitabçalar və əsərlər çap edildi, elmi konfranslar keçirildi. Bu fəaliyyətlər indi də davam etdirilir. Xocalıda törədilən soyqırımdan alınacaq bir sıra ibrət dərsləri vardır. O zaman Azərbaycanda sabitlik, güclü dövlət, ordu və qüdrətli lider, xalq ilə hakimiyyət, hakimiyyətin qanadları arasında birlik olsaydı, Xocalı soyqırımı olmaya bilərdi. Deməli, Xocalı soyqırımından alınacaq başlıca ibrət dərsi ondan ibarətdir ki, ölkəmizdə sabitlik, güclü dövlət, qüdrətli ordu, hakimiyyət ilə xalq, hakimiyyətin qanadları arasında sıx birlik daim mövcud olmalıdır. Ötən illərin təcrübəsi göstərir ki, millətimizin qarşıya qoyduğu məqsədə çatmasının təməlində bilavasitə həmin amillər dayanır. Necə ki, 44 günlük müharibədə qazanılan Qələbə bunu sübut etdi.

Musa QASIMLI,
Milli Məclisin deputatı,
AMEA-nın müxbir üzvü,
professor

Britaniya parlamentinin bir qrup üzvü Xocalı soyqırımı barədə birgə bəyanat yayıb

Böyük Britaniya Parlamentinin 12 üzvü Xocalı faciəsinin 30-cu ildönümü ilə əlaqədar birgə bəyanatla çıxış edib.

Azərbaycanın Böyük Britaniyadakı səfirliyindən verilən məlumatda bildirilir ki, parlamentarilər qətliamın 30-cu ildönümü ilə əlaqədar Azərbaycan xalqına, xüsusilə də faciə nəticəsində yaxınlarını itirənlərə başsağlığı verib, Azərbaycan xalqı ilə həmrəylik ifadə edib.

Xocalı qətliamı parlamentarilər tərəfindən Azərbaycanın yaxın tarixinin ən faciəvi səhifələrindən biri kimi xarakterizə edilmişdir. Parlamentarilər Xocalıda baş verənləri hərbi cinayət və bəşəriyyətə qarşı cinayət kimi xarakterizə edən Avropa İnsan Haqları Məhkəməsinin 22 aprel 2010-cu il tarixli qərarını xatırlatmışlar. Bu kontekstdə gələcəkdə belə faciələrin qarşısını almaq məqsədilə beynəlxalq humanitar hüququn möhkəmləndirilməsi zərurətini vurğulamışlar.

Britaniyalı parlamentarilər, həmçinin münaqişənin yekunlaşmasını alqışlayaraq, regionda bütün maraqlı tərəflərin iştirakı ilə aparılan danışıqların Azərbaycan və Ermənistan arasında münasibətlərin tam normallaşmasına gətirib çıxaracağına ümidvar olduqlarını qeyd etmişlər.

Bəyanatda postmünaqişə mərhələsində ərazilərin minalardan təmizlənməsi, kommunikasiya-nəqliyyat əlaqələrinin bərpası, sərhədlərin delimitasiya və demarkasiyası kimi proseslərin reallaşdırılmasının vacibliyi vurğulanmış, ərazilərin minalardan təmizlənməsi istiqamətində Birləşmiş Krallıq hökumətinə çağırış edilmişdir.

Xatırlatmaq istərdik ki, birgə bəyanat indiyə qədər Böyük Britaniya parlamentarilərinin Xocalı faciəsinə dair qəbul etdiyi ilk birgə təşəbbüsdür. Təşəbbüsə Parlamentin İcmalar Palatasının üzvləri Bob Blekmen, Deyvid Duquid, Bob Sili, Metyu Offord, Dan Poulter, Lordlar Palatasının üzvləri Lord Rizbi, Lord Sheikh, Lord Kilkluni, Lord Hussain, Lord Evans, Baronessa Manzoor və Lord Flayt qoşulmuşlar. Bundan əvvəl– 2017-ci ildə isə Şotlandiya regional parlamentində Xocalı faciəsinə dair irəli sürülmüş qanunvericilik təşəbbüsü regional parlamentin əksər üzvləri tərəfindən dəstəklənmişdir.

Böyük Britaniya Parlamentinin Azərbaycanla dostluq qrupunun 22 fevral 2022-ci il tarixində keçirilmiş iclasında da Xocalı faciəsinin 30-cu ildönümü müzakirə edilmiş, iclasda iştirak edən parlamentarilər tərəfindən Xocalı qətliamı ilə bağlı bir daha Azərbaycan xalqı ilə həmrəylik ifadə edilmişdir.

"Xalq qəzeti"

Xocalı qətliamına həsr olunmuş anım mərasimi

Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatında Xocalı soyqırımının 30- cu ildönümünə həsr olunmuş tədbir keçirilib. Əvvəlcə həmin hadisələr zamanı işgəncələrə məruz qalmış xocalılara həsr olunmuş videoçarx nümayiş etdirilib. Sonra Xocalı soyqırımında həlak olanların, həmçinin bütün şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Xocalı faciəsini "dünyada analoqu olmayan soyqırımı" adlandıran YAP Nəsimi rayon təşkilatının sədri Azər Süleymanov 30 il əvvəl – fevralın 25-dən 26-na keçən gecə erməni silahlı birləşmələrinin qəddarlığından söhbət açdı. Dedi ki, o vaxt xarici havadarlarına arxalanan ermənilərin işğalçılıq əməlləri artırdı. Eləcə də, dünyada baş alıb gedən özbaşınalıq, ikili standartlar və qatı ermənipərəstlik üzdəniraq qonşumuzu daha da həyasızlaşdırmışdı. Belə bir vaxtda erməni faşistləri dünyanı lərzəyə salan Xocalı soyqırımını törətdilər.

Təşkilat sədri dedi: "Dünya birliyinin gözü qarşısında baş verən bu dəhşətli qətliam xüsusi qəddarlığı ilə seçilirdi. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan hərbi birləşmələri 7 min əhalisi olan Xocalı şəhərini yerləyeksan etdi, dinc əhali gülləbaran edildi, canlarını güclə qurtaranlar qışın soyuğunda, qarda, şaxtada dağlarda, meşələrdə gizlənmək istədi. Əksəriyyəti soyuqdan donaraq öldü. Xocalı soyqırımı zamanı 613 nəfər, o cümlədən 106 qadın, 63 azyaşlı uşaq, 70 qoca öldürülmüş, 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 130 nəfər valideynlərindən birini itirmiş, 1000 nəfər müxtəlif yaşlı dinc sakin aldığı güllə yarasından əlil olmuşdur. Soyqırımı gecəsi 1275 nəfər dinc sakin girov götürülmüşdür və onlardan 150-sinin taleyi indi də məlum deyil. Bütövlükdə, Azərbaycan xalqına qarşı törədilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində misli olmayan vəhşilik aktıdır. Bu soyqırımı, eyni zamanda, bütün bəşəriyyətə qarşı cinayətdir".

A.Süleymanov YAP Nəsimi rayon təşkilatında da uzun illərdir ki, "Xocalıya ədalət!" kampaniyası çərçivəsində müxtəlif silsilə tədbirlər keçirildiyini bildirdi. Qeyd etdi ki, xalqımız bu dəhşətli faciəni heç zaman unutmayacaq. Xocalı soyqırımına beynəlxalq hüquqi-siyasi qiymət verilməlidir.

Xocalı sakinləri, Azərbaycan Tibb Universitetinin insan anatomiyası kafedrasının professoru Mübariz Allahverdiyev və Bakı Dövlət Universitetinin Qafqaz xalqları tarixi kafedrasının professoru Qabil Əliyev ermənilərin qəddarlığından söhbət açdılar. Qeyd edildi ki, ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ilk dəfə Xocalı soyqırımına siyasi-hüquqi qiymət verildi və faciənin təşkilatçılarının adları dünya ictimaiyyətinə açıqlandı.

Prezident İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın Xocalı soyqırımının dünyada təbliğ olunmasında əvəzsiz xidmətləri diqqətə çatdırıldı. Qeyd olundu ki, xocalıların qanı yerdə qalmadı. Rəşadətli Azərbaycan Ordusu Vətən müharibəsində işğalçı Ermənistan ordusunu darmadağın edərək şəhidlərimizin qisasını aldı.

Əliqismət BƏDƏLOV,
"Xalq qəzeti"

Estoniyalı deputatlar Xocalı soyqırımını hiddətlə qınadıqlarını bəyan ediblər

Estoniya xalqının təmsilçilər məclisi olan Riyqikoqunun Azərbaycanla parlamentlərarası əlaqələr üzrə deputat qrupu Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar bəyanatla çıxış edib.

Bəyanatda bildirilir ki, deputat qrupu Xocalı qətliamı ilə bağlı Azərbaycan xalqının ağrısını bölüşür və dərin hüznlə başsağlığı verir: "Biz 1992-ci il fevralın 25-dən 26-na keçən gecə 600-dən çox dinc sakinin, o cümlədən çoxlu sayda qadın, uşaq və qocanın qətlə yetirilməsi ilə müşayiət olunan Xocalının işğalını qətiyyətlə pisləyirik. Bu kütləvi qətliamı törətmiş cinayətkarlar məsuliyyətə cəlb olunmalıdırlar". Bəyanat müəllifləri hesab edirlər ki, regiondakı bütün dövlətlərin suverenlik, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı hüququ var: "Biz tərəflərə regionun bərpasında güc diləyir və müxtəlif icmalar arasında sıx əməkdaşlığa çağırırıq. Biz Azərbaycan Respublikasının sabit sülhün təmin edilməsinə, işğaldan azad edilmiş ərazilərin inteqrasiyasına və bərpasına yönəlmiş səylərini dəstəklədiyimizi bildiririk".

Qeyd edək ki, Sven Sesterin başçılıq etdiyi deputat qrupuna Xocalı soyqırımının 30-cu ildönümünə münasibət bildirməsi təşəbbüsü ilə Estoniya–Azərbaycan Mədəniyyət Mərkəzinin sədri Niyazi Hacıyev müraciət edib.

Bəyanat Riyqikoqunun rəsmi saytında yerləşdirilib.

Samirə ƏLİYEVA,
"Xalq qəzeti"